*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2025, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 74-90* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2025.1.74*

# Məmməd Əliyevin "Bir yaşıl, uzaq ada" əsərinin janr xüsusiyyətləri, problematikası, obrazları və bədii dili

**Salidə Şərifova**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: sharifovasalida@rambler.ru

**Annotasiya.** Məmməd Əliyevin "Bir yaşıl, uzaq ada" əsəri qələmə aldığı "Həsrətin o üzü" (2021), "Karvan köçər, ötər gedər sədası" (2021), "Mavi-yaşıl gözlərin işığı" (2023) kimi irihəcmli romanları əhatə edən tetralogiyasının dördüncü kitabıdır. Əsərin birinci bölümü xalqımızın yaşadığı 20 Yanvar, həmçinin 20 Noyabr, yəni Qarakənd faciəsi, Çaykənd əməliyyatı, Daşaltı əməliyyatına və s. həsr edilmişdir. Müəllif, sadəcə, təsvirlə kifayətlənmir, həm də onun fəsadlarını geniş, ətraflı şəkildə təqdim edir. Romanın ikinci bölümündə əsərin qəhrəmanı Muradın təyin olunduğu Universiteti yox yerdən yaratması, onun üçün apardığı mücadilələr geniş şəkildə, xalqı düşündürən sosial problemlər fonunda təqdim edilir.
"Bir yaşıl uzaq ada" əsəri roman-etiraf xüsusiyyətlərinə malik olması ilə diqqəti cəlb edir. Roman-etirafda avtobioqrafiklik əsərin qəhrəmanının öz həyat təcrübəsi, dünyaya münasibəti, həmçinin sosial statusuna görə müəllifə yaxın olması ilə bağlıdır. Məmməd Əliyev də bir yazar olaraq, şahidi olduğu, yaşadığı hadisələri ümumiləşdirmələr apararaq təsvir edir.
**Açar sözlər:** Məmməd Əliyev, "Bir yaşıl uzaq ada", problematika, roman-etiraf

**Məqalə tarixçəsi:** göndərilib – 18.03.2025; qəbul edilib – 04.04.2025

# Genre characteristics, problematics, images and artistic language of the work "A green, distant island" by Mammad Aliyev

**Salida Sharifova**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: sharifovasalida@rambler.ru

**Abstract.** Mammad Aliyev's work "A Green, Distant Island" is the fourth book in his tetralogy, which includes large-scale novels such as "Other side of longing" (2021), "The caravan is moving, the echo is passing" (2021), and "The Light of Blue-Green Eyes" (2023). The first part of the work is dedicated to the January 20 and November 20 events that our people experienced, namely the Garakand tragedy, the Chaykand operation, the Dashalti operation, and so on. The author is not content with just describing it, but also presents its consequences in a broad and detailed manner. In the second part of the novel, the hero of the work, Murad, creates the University from scratch and the struggles he waged for it, against the backdrop of social problems that make people think.
The work "A Green Distant Island" attracts attention with its novel-confession features. Autobiographical in a novel-confession is due to the fact that the hero of the work is close to the

author due to his life experience, attitude to the world, and also his social status. Mammad Aliyev, as a writer, also describes the events he witnessed and experienced by making generalizations.
**Keywords:** Mammad Aliyev, "A green, distant island", problematics, novel-confession

**Article history:** received – 18.03.2025; accepted − 04.04.2025

## Giriş / *Introduction*

Əməkdar müəllim, filologiya elmləri doktoru, professor Məmməd (Məhəmməd) Əliyevin oxuculara təqdim etdiyi "Bir yaşıl uzaq ada" əsəri qələmə aldığı "Həsrətin o üzü" (2021), "Karvan köçər, ötər gedər sədası" (2021), "Mavi-yaşıl gözlərin işığı" (2023) kimi irihəcmli romanları əhatə edən tetralogiyasının dördüncü kitabıdır. "Bir yaşıl uzaq ada" romanında hadisələr Muradın yaşadığı və şahidi olduğu, eşitdiyi hadisələrlə bağlıdır. Əsərin birinci bölümü xalqımızın yaşadığı 20 Yanvar faciəsini, həmçinin 20 Noyabr faciəsini, yəni Qarakənd faciəsini, Çaykənd əməliyyatını, Daşaltı əməliyyatını və s. xatırladır. Müəllif sadəcə xatırlatmaqla kifayətlənmir, həm onu törədən amilləri, həm də fəsadlarını geniş, ətraflı şəkildə təqdim edir. Bu təqdimat bizə tarixi olayları gözümüzdə sərgiləyir. Romanın ikinci bölümündə əsərin qəhrəmanı Muradın təyin olunduğu Universiteti yox yerdən yaratması, onun üçün apardığı mücadilələr geniş şəkildə, xalqı düşündürən sosial problemlər fonunda təqdim edilir.

## Əsas hissə / *Main part*

### Romanın janr xüsusiyyətləri

Məmməd Əliyevin oxuculara təqdim etdiyi "Bir yaşıl uzaq ada" romanı, ilk növbədə, ideya cəhətdən bir vəhdət təşkil edən "Həsrətin o üzü", "Karvan köçər, ötər gedər sədası", "Mavi-yaşıl gözlərin işığı" adlı romanların davamı kimi diqqəti cəlb edir. İdeya cəhətdən vəhdət təşkil edən bu dörd əsər ədəbiyyatda az rast gəlinən tetralogiya nümunəsi kimi də maraq kəsb edir.

Yazıçının ictimaiyyətə təqdim etdiyi və Azərbaycan ədəbiyyatında ilk tetralogiyaya daxil edilən romanlarının janr xüsusyyətləri diqqəti cəlb edir. Bu baxımdan "Həsrətin o üzü", "Karvan köçər, ötər gedər sədası", "Mavi-yaşıl gözlərin işığı" romanları roman-etiraf xüsusiyyətlərinə malikdir. "Bir yaşıl uzaq ada" romanı da roman-etiraf xüsusiyyətlərinə malik olması ilə diqqəti cəlb edir. Tetralogiyaya daxil olan dörd əsər janr baxımından roman-etirafdır. Tetralogiyada etiraf elementləri özünü qabarıq şəkildə göstərir. Qeyd etmək lazımdır ki, roman-etirafların konstruksiyası özlüyündə mürəkkəb sintetik matrisanı (özülü) əks etdirir. Bu məqam da bir sıra tədqiqatçılar arasında fikir ayrılığına səbəb olur. Roman-etiraflarda roman və etiraf janrlarının xüsusiyyətləri deyil, həmçinin avtobioqrafik janra xas olan elementlərin nüfuz etməsi özünü göstərməkdədir. Məlum faktdır ki, avtobioqrafik əsərdə qəhrəmanın öz adı ilə adlandırılması vacibdir. Lakin Məmməd Əliyev tetralogiyasına daxil olan əsərlərdə obrazını öz adı ilə deyil, Murad adı ilə adlandırır. Bu fakt da bizə bu əsərlərin janrını avtobioqrafik roman kimi təqdim etməyə imkan vermir. Roman-etirafda avtobioqrafikliyin özünü göstərməsi bizə əsas verir ki, yazıçının ictimaiyyətə təqdim etdiyi tetralogiyasına daxil olan "Bir yaşıl uzaq ada" romanından roman-etiraf kimi bəhs edək. Roman-etirafda avtobioqrafiklik əsərin qəhrəmanının öz həyat təcrübəsi, dünyaya münasibəti, həmçinin sosial statusuna görə müəllifə yaxın olması ilə bağlıdır ki, biz də bu xüsusiyyəti yazıçının təqdim etdiyi əsərlərdə görürük. Belə ki, hər dörd romanda Murad müəllifin özüdür. Murad bir obraz kimi yazıçının düşüncələrini, dünyaya baxışını, keçdiyi həyat yolunu əks etdirir. Məmməd Əliyev də bir yazar olaraq, şahidi olduğu, yaşadığı hadisələri ümumiləşdirmələr apararaq təsvir edir. Qeyd

edilənlərə əsaslanaraq, yazıçının tetralogiyasındakı əsas, baş qəhrəman Muradın təsvir etdiyi hadisələr Məmməd Əliyevin həyatında olan hadisələrlə əlaqəli olsa da, biz bu əsəri avtobioqrafik əsər adlandıra bilmirik.

Məmməd Əliyev tetralogiyasında "şüur axını" metodundan istifadə edir. Məsələn, Məmməd Əliyevin tetralogiyaya daxil olan "Karvan köçər, ötər gedər sədası" romanında "şüur axını" metodundan istifadə edərək, iki gəncin bir-birinə olan hisslərini, keçirdikləri hiss və həyəcanları sevgi dastanı kimi təqdim edir: "**Səadət.** ... Bu o idi! O idi!... Mənim axtardığım, artıq mənim üçün xəyala çevrilmiş, xəyali varlıq!" [1] Yazıçı "xəyali varlıq" adlandırdığı Səadəti "Bir yaşıl uzaq ada" romanında da xatırlayır. Bu, müəllifin tetralogiyasında təsvir edilən hadisələrin, obrazların bir-birilə əlaqəli və sıx bağlı olan süjet xəttlərində verilməsini təsdiq edir.

Müəllif "Bir yaşıl uzaq ada" romanında da "şüur axını" metodundan istifadə edir. Yazıçı ayrı-ayrılıqda təqdim etdiyi yarımbölmələr arasında vəhdət yaradır. Diqqəti cəlb edən məqam isə yazıçının həmin yarımbölmələri əsər daxilində ayrıca bir məqam kimi göstərməsidir. Müəllif Səadətin fikirləri ilə onun peşmançılığını, qadın kimi bədbəxtliyini göstərir. Yazıçının romanın daxilində Səadətin düşüncələri fonunda təqdim etdiyi hissə əsərdə ayrıca bir əsər olması təəssüratı yaradır. Bitkin, dolğun olması diqqətdən yayınmır. Müəllif Səadətin düşüncələri ilə Muradın bir obraz kimi oxucu üçün qaranlıq qalan məqamlarına aydınlıq gətirir: **"Səadət.** O, həmişəki kimi sadə və həlim idi, hamı ilə görüşdü, əvvəlki illərdəki kimi təmiz və səliqəli geyinmiş, saçlarını soldan sağa ayırmış, hamıda xoş ovqat yaradırdı.

Hamımız ona baxmaqdan, onunla danışmaqdan, söhbət etməkdən doymurduq... Əvvəlki kimi coşğunluqla, deyib-gülməklə danışmırdı, xasiyyəti dəyişmiş, daha təmkinli olmuşdu, danışanda müsahibinin üzünə baxmır, nəzərlərini ondan yayındırırdı. Həyat onu dəyişmişdi... Bu vərdişi onda tələbəlik illərindən sezmişdik. O nədən danışır-danışsın, çox maraqlı alınırdı. Nəzərlərimiz toqquşanda onun gözlərindəki odu, atəşi görmədim... O atəş, od yox olub getmişdi...

Mən onun üçün artıq romantik bir varlıq deyil, sadəcə olaraq bir məişət qadını idim. Bunu mənə onun davranışı, baxışları deyirdi... Ömrün sevib-seçmək amacında etdiyim acınacaqlı yanlışlıq mənə kədərli ömrüm bahasına başa gəldi.

Hər şeyi, hətta tələbəçiliyimizdəki münasibətləri də elə bil yaddan çıxarmışdı. Heç nəyi ifadə etməyən hərəkət və danışığında mənə qarşı çox soyuqluq hiss etdim... "Sönmüş bir sevginin soyuğu" mənim canıma, qanıma işləyirdi. O, indi mənim üçün əlçatmaz bir varlığa çevrilmişdi... O bizim "sevgi oyunumuzda" qalib çıxmışdı. Görəsən, özü bunu bilirdimi? O "Özünüzdən muğayat olun", – deyib gedəndə içimdə nəyin isə qırıldığını hiss etdim... Bizi qarşıda çətin illər gözləyir! – deyəndə nələri nəzərdə tuturdu?.. Taleyimlə barışa bilmirəm... Hönkür-hönkür ağlamaq istəyirdim... Əgər o illərə qayıda bilsəydim..."

Yazıçı "Səadət" başlıqlı yarımbölmədə həm Səadətin qadın kimi xoşbəxtlikdən, səadətdən uzaq obrazını, həm də Muradın gənclikdəki kimi çoşqun deyil, sakit təbiətə malik obrazını canlandırır. Beləliklə, müəllif "şüur axını" metodundan istifadə edərək, əsərin obrazlarının düşüncələri ilə əsərdəki hadisələrə aydınlıq gətirir.

Qeyd etmək lazımdır ki, Məmməd Əliyev "Karvan köçər, ötər gedər sədası" adlı romanında istifadə etdiyi "şüur axını" metodundan "Bir yaşıl uzaq ada" romanında da sənətkarlıqla istifadə edir. Yazar əvvəlki əsərində, yəni "Karvan köçər, ötər gedər sədası" adlı romanında "şüur axını" metodundan [4] istifadə etməklə sevən gənclərin bir-birilərinə olan hisslərini, keçirdikləri hiss və həyəcanları çatdıra bilirsə, bu əsərində, yəni "Bir yaşıl uzaq ada" romanında isə əsərin əsas qəhrəmanı Muradın iztirablarını, şahidi olduğu real tarixi hadisələri nəql edir. Müəllifin tetralogiyasının müxtəlif hissələrində təqdim edilmiş bu yarımbölmələr əsərdə vəhdət yaradır, hadisələri bir-biri ilə əlaqələndirərək əsər daxilində ayrıca bir məqam olmalarını işıqlandırır.

Romanın janr xüsusiyyətlərinə diqqət yetirərkən, tetralogiyanın digər üç kitabında olduğu kimi, bəzi hadisələrin qısa yarımbölmələr və obrazların adı ilə nəql edilməsi zamanı təsvir edilməsi diqqəti

cəlb edir. Qeyd etdiyimiz kimi, bu, tetralogiyanın digər hissələrində də özünü göstərir. Tetralogiyaya daxil olan romanlarda yarımbölmələr, əsasən, tetralogiyanın əsas və baş qəhrəmanı Muradın adı ilə təqdim edilir. “Bir yaşıl uzaq ada” romanında “Murad” adı ilə təqdim edilən hissədən bir parçaya nəzər salsaq, fikrimizdə aydınlıq yaranar: “**Murad.** Bizim görə bilmədiyimiz, ancaq xarici kəşfiyyat orqanlarının ciddi səyi və işi sayəsində uzun illər boyu hazırlanan strateji planda bu dövlətin ən zəif və həssas həlqəsi – millətlərarası münasibətlərin kövrək olması idi ki, onun etnik-milli münaqişələr müstəvisinə çıxarılması ölkənin dağıdılması prosesinin başlanğıcı oldu”. Romanda təqdim edilən Muradın düşüncələri onun monoloqu kimi diqqəti cəlb edir. Sanki bu obrazlar müəllifin oxucuya demək istədiyi fikirləri çatdırmağa cəhd edir. “Bir yaşıl uzaq ada” romanında Muradın monoloqunda 20 Yanvar hadisələrinin başlanğıcının, onun fəsadlarının təsviri ilə tanış oluruq: **“Murad.** Yanvar ayının 18-də işə getmək istədim. Yolların kənarlarında xeyli qar qalsa da, aydın, günəşli bir qış günü idi. Nəqliyyat işləmirdi, qərara aldım ki, “Nizami” metrosuna qədər piyada gedib sonra metroya minərəm... “Salyan kazarmaları” deyilən hərbi hissənin qabağından keçəndə 100-150-yə yaxın adamın hərbi hissənin qarşısını kəsməsini görüb ayaq saxladım. Onlar hərbi hissədən çıxmış “Ural” markalı maşının qabağını kəsib saxlamışdılar”. Müəllif baş verən tarixi olayların başlanmasını öz monoloqunda daha kəskin şəkildə təqdim edir: “Havadan qan qoxusu gəlirdi… Vəziyyət bu şəkildə davam etməyəcəkdi”. Müəllif bu fikirlərlə oxucusunu baş vermiş 20 Yanvar faciəsini əks etdirən hadisələr ilə tanışlığa bir mühit yaradır.

Məmməd Əliyev romanda hadisələri maraqlı ədəbi priyomlarla təqdim edir. Bu təqdimatda hadisələrin tetralogiyanın əvvəlki hissələri ilə əlaqələndirilməsi də özünü göstərir. Məsələn, “Mavi-yaşıl gözlərin işığı” romanında xüsusi yer tutan simvolizmə “Bir yaşıl uzaq ada” əsərində də rast gəlirik. Müəllif həm “Mavi-yaşıl gözlərin işığı” romanında, həm də “Bir yaşıl uzaq ada” romanında rəngləri simvollaşdırmağa nail olur. Yazıçının romanlarında mavi-yaşıl rəngə üstünlük verildiyini tez-tez müşahidə edirik. Simvollaşdırdığı mavi-yaşıl rənglər əsərdə həm xəyal, həm də real dünyanın bir rəmzinə çevrilir. Müəllif “Mavi-yaşıl gözlərin işığı” romanında təsvir etdiyi arzu, murad, istək və duyğusal rəng hesab edilən yaşıl rəngi “Bir yaşıl uzaq ada” romanında da istifadə edir. Məmməd Əliyev hər iki romanda mavi-yaşıl rəngi inandığı, sevdiyi, dəyər verdiyi insanların gözlərinin rəngi kimi təqdim edir. Məsələn, yazıçının vurğuladığı kimi laməkan (zamanın və məkanın işləmədiyi sonsuzluq) bir eşqin məhsulu olan “Mavi-yaşıl gözlərin işığı” romanında biz mavi-yaşıl rəngin Muradın oğlu Turalın da gözlərinin rəngi, hətta Muradın dünyada ən əziz varlığı olduğu anasının gözlərinə bənzədilməsinin təsviri ilə dünyaya gələn insanların genetik bağlılığına işarə edilməsinin şahidi oluruq: “Nə mənə, nə də anasına! Sənə oxşayıb nəvən! Sarışın, gözləri yaşıla çalan mavi rənglə qarışıq!..” [2]

Tetralogiyanın üçüncü kitabı olan “Mavi-yaşıl gözlərin işığı” romanında təsvir edilən mavi-yaşıl gözlü Tural məhz Muradın bu günü və gələcəyidir. Muradın dünyada ən çox bağlı olduğu varlıqlar olan anasının, arzularını və gələcək söykökünü davam etdirən Turalın və ömrünün mənasına çevrilmiş Adrinin gözlərinin rəngini “Mavi-yaşıl gözlərin işığı” romanında əks etdirən yazıçı bunu “Bir yaşıl uzaq ada” romanında da təsvir edir. Biz bununla komada olan Adrinin komadan ayılıb yaşamını davam etdirməsi epizodunda üzləşirik. Adrini komadan ayıldan məhz mavi-yaşıl işıq, daha dəqiq desək, Turalın gözlərinin rəngi olur: “...Adri dərin “yuxuda” idi. Beyninin hansı bir zərrəsində isə “oyaq” işıqlı nöqtə qalmışdı, birdən bu zülmətin içindən çox uzaqda, mavi-yaşıl işıq göründü, onlar Turalın gözləri idi... İşıq ona yaxınlaşdı, Adri o gözləri tanıdı: ciyərparası Tural idi!... Yaxınlaşıb onun ayaqlarını qucaqladı, üzünü anasının dizlərinə sürtdü... Adrinin canına ilıq bir hərarət gəldi, bu hərarət onun bədəninə, ruhuna yayıldı... Zülmət dağıldı, ətraf işıqlanıb nura boyandı... Ürəyinin döyünməsi öz məcrasına düşdü, yaralanmış beyninə şüur axdı...”

Müəllif, hətta Adrinin həyatla ölüm-dirim mübarizəsi aparmasını, hadisələrin heç də ürəkaçan olmamasını da mavi-yaşıl rəngin onun gözlərində görə bilməməsində təqdim edir: “Adri tamam arıqlamış, zəifləmiş, sifəti tanınmaz olmuşdu. Mavi-yaşıl gözlərindən, ağ sifətindən, qızıl-sarı

saçlarından əsər-əlamət qalmamışdır...”

Yazıçının mavi-yaşıl rəngi “Mavi-yaşıl gözlərin işığı” əsərində Muradın bu günü və gələcəyini ifadə edirsə, “Bir yaşıl uzaq ada” əsərində ondan uzaq, əsərin də adına çıxardığı məkanda sonsuzluğa qərq olmasını əks etdirir. Müəllif simvollaşdırdığı rənglərlə əsərin qəhrəmanının həyatını işıqlandırmağa nail olur.

**Romanın problematikası**

Romanın problematikasında müəllifin yaşadığı və şahidi olduğu tarixi hadisələri təsvir etməsi maraq kəsb edir. Yazıçı əsərin problematikasında yalnız Muradın taleyi ilə bağlı hadisələri deyil, həm də tarixi hadisələri təsvir edir. Məsələn, romanın problematikasında tarixi, siyasi hadisələrə nəzər salınması, xalqımızın qan yaddaşına çevrilmiş faciələr və s. mövzu və problemlər yer alır.

Romanda müəllifin siyasi olaylara diqqət yetirməsi, şahidi olduğu və ya tarixdə baş vermiş tarixi olayları dəyərləndirməsi özünü büruzə verir. Müəllif bir azərbaycanlı ziyalısı kimi şahidi olduğu tarixi hadisələrə biganə qalmır. 90-cı illərdə hamını düşündürən əsas məsələ – Vətənin bütövlüyü, torpaqlarının qorunması uğrunda xalqın narahatçılığını əks etdirir: “Erməni ekstremizminin baş alıb getdiyi bir zamanda əhalidən ov tüfənglərinin belə yığışdırıldığı dövr idi... Ermənistandan yüz minlərlə soydaşımız əzab və işgəncələrə məruz qalaraq deportasiya edildi. Ermənistanda etnik təmizləmə başa çatdırıldı.

Terror, erməni vandalizmi Dağlıq Qarabağda baş alıb gedirdi. Hər bir gün ölümlə, qanla başa çatırdı. Azərbaycanlılar yaşayan kənd və qəsəbələrdə əhali öz dədə-baba yurdlarından didərgin salınırdı”.

Azərbaycanın ikili standartların qurbanına çevrilməsinin acısı yazıçı tərəfindən bədii dillə təqdim edilir: “...müdafiə nazirliyi yaradıldı. Nə ordu yaradılır, nə də o təchiz edilirdi. Bir-birinin ardınca dörd müdafiə naziri dəyişdirildi, ancaq məlum oldu ki, bu dövlətin ordusunda cəmi 150 əsgər var imiş. Bu əsl faciə idi! Ermənilər isə dünyanın bir sıra ölkələrindən muzdlu əsgərlər, atıcılar gətirdir, onları Dağlıq Qarabağa göndərirdilər. Qarabağ gözlərimiz qabağında ermənilərin əlinə keçirdi”. Xalqımızın ağrılı yeri olmuş Qarabağ olaylarının xatırlanması xalqımızın Zəfər əldə etməsinə rəğmən tarixi yaddaşına həkk olunmasının göstəricisidir.

Birinci Qarabağ müharibəsi zamanı adlarını xalqın qan yaddaşına yazdırmış oğullar yazıçı tərəfindən xatırlanır: “Həmin illərdə sıravi ordu olmadığından erməni təcavüzünün qarşısında dayanan könüllülərdən yaradılmış özünümüdafiə batalyonları idi. Allahverdi Bağırovun özünümüdafiə batalyonu, əslində, düşmən təcavüzünə qarşı yaradılmış partizan hərəkatı idi. Qubadlıda Əliyar Əliyevin dəstəsinin, Xocalıda Əlif Hacıyevin igidlikləri dillər əzbəri olmuşdu”.

Yazıçının tetralogiyasına daxil olan “Bir yaşıl uzaq ada” romanında da Azərbaycan xalqının qan yaddaşına nəzər salınması əsərin problematikasına ağırlıq gətirmir. Əksinə, tarixi hadisələrin incələnməsi həmin hadisələrin bədii dillə yaddaşlara həkk olunmasını təmin edir. Yazıçı “1988-ci ildə Dağlıq Qarabağ Xalq Deputatları Soveti Azərbaycandan ayrılıb “müstəqil dövlət qurumu” kimi fəaliyyət göstərmək haqqında qərar qəbul etdi və bu qərarın arxasında Dağlıq Qarabağın Ermənistanla birləşdirilməsi kimi məkrli bir plan dayanırdı” kimi cümlələri ilə Dağlıq Qarabağ hadisələrinin başlanılmasına işıq salır.

Müəllif romanda xalqımızın tarixi yurd-yuvalarından zorən didərgin salınması faktlarına da toxunur. Mövcud siyasi qurumun baş verən hadisələrin qarşısını almaq üçün ikili standartlar həyata keçirilməsinə nəzər salınır: “Guya Dağlıq Qarabağda “həyat səviyyəsi” daha da yaxşılaşacaqdı... Xankəndində yaşayan köklü azərbaycanlılar sıxışdırılır, işdən çıxarılır, hədə-qorxu ilə evləri əllərindən alınır, şəhərdən köçürülürdülər. Şəhərdə fəaliyyət göstərən Azərbaycan məktəbi bağlandı” və s.

Romanın problematikasında diqqəti çəkən məqamlardan biri də məhz 1988-ci ildə Azərbaycan xalqının birləşərək mübarizə aparmasının əks etdirilməsidir. Doğma torpaqlarının sərvətlərini məhv

etməsinə icazə verməyən xalqın azadlıq istəyi də müəllif tərəfindən incə nüanslarla açıqlanır: "1988-ci ilin noyabr ayında Ermənistan səlahiyyətlərini aşaraq Şuşanın Topxana meşəsində özlərindəki alüminium zavodunun filialının tikintisinə başladı. Bu, Qarabağın flora və faunasını məhv etmək demək idi. Azərbaycan xalqı ayağa qalxdı. Qarşısıalınmaz sel kimi insanlar axın-axın nümayiş və mitinqlərə başladı. Heç bir qüvvə bu axının qarşısını ala bilmədi, Azadlıq meydanı milyonlarla insanı öz ağuşuna aldı..." Yazıçı həmin günü tarixin adi bir günü kimi deyil, xalqın qan yaddaşına hopmuş bir gün olmasına da aydınlıq gətirir: "Həmin gün – 17 noyabr 1988-ci il Azərbaycan tarixinə Milli Dirçəliş günü kimi yazıldı". Yazıçı Azadlıq meydanını xalqın yaddaşına hopmuş bir məkan kimi təqdim edir: "Azadlıq meydanı xalqın birliyinin, gücünün təməl daşı, alınmaz qalasına çevrilmişdi". Müəllif bu azadlıq uğrunda mübarizədə bütün xalqın həmrəy olmasını da xüsusi olaraq vurğulayır: "Nümayişçilər saysız-hesabsız çadır quraraq oranı boş buraxmırdılar. Azərbaycan xalqı nümayişə maddi və mənəvi yardım göstərirdi..." Romanın baş qəhrəmanı Muradın dili ilə yazıçı bu mücadilənin şərəfli, qürurverici olmasına toxunmaqla, bu mücadilənin 20 Yanvar kimi faciə ilə xalqın əzmini qırmağa cəhdləri də nəzərdən qaçırmır: "...O günlər, xalqın azadlıq hərəkatı, milli mücadilə günləri idi! İstəsək də, istəməsək də canımızla, qanımızla onun iştirakçısı olduq!

O günlər bir də ona görə gözəl idi ki, millət sözünü deyə bilirdi. Onun gücü yaddaşlara həkk olundu, millət bir yumruq kimi düyünləndi! Bu birlik imperiyanı lərzəyə saldı!...

Milli mücadilə 20 Yanvara gedən yolun başlanğıcı oldu".

Məmməd Əliyev tetralogiyasına daxil olan digər əsərlərində olduğu kimi, "Bir yaşıl uzaq ada" romanında da tarixi faktlara tez-tez müraciət edir. Məsələn, əsərdə Azərbaycan torpaqlarını ələ keçirməyə cəhd edən erməni terrorçularının məkrli oyunları tarixi faktlarla açıqlanır. Birinci Qarabağ müharibəsi zamanı baş verən olayları yazıçı konkret tarixi faktlarla əks etdirir: "Xarici ölkələrdən gətirilmiş muzdlular və Ermənistandan göndərilmiş fədailər Xanlar rayonunun Çaykənd və Qarabulaq kəndlərinə, ətrafındakı meşəli dağlara yığışıb Gəncəyə hücum etməyə hazırlaşırdılar. ...Gəncə ətrafı erməni quldurlarından təmizlənməli idi. Azərbaycan tərəfində döyüşlərdə xeyli təcrübəsi olan daxili qoşunların bəzi bölmələri və OMON iştirak edəcəkdi. Bu bölməyə general Məhəmməd Əsədovun (Daxili işlər naziri) ümumi rəhbərliyi altında Rövşən Cavadov rəhbərlik edirdi". Məmməd Əliyev Çaykənd əməliyyatının keçirilmə tarixini də dəqiq göstərir və onu zəmanəsi üçün ən böyük və uğurlu hərbi əməliyyat kimi dəyərləndirir: "1991-ci ilin aprelin 10-da əməliyyata başlamaq əmri verilsə də, hazırlıq işləri aprelin 30-na qədər çəkdi. Aprelin 30-da qoşun bölmələri hücuma keçdilər. Döyüşlərdə hərbi helikopterlər, zirehli texnikadan istifadə edildi. Ordu bölmələri artilleriya atəşindən sonra kəndə girdilər. Onlarla erməni yaraqlısı və onlara kömək edən silahlı kənd sakini öldürüldü, 50-dən çoxu əsir götürüldü. Döyüş zamanı silahlı erməni bölmələrinin komandiri Kpreyan öldürüldü. Dağıdılmış və pərən-pərən salınmış erməni fədailəri dağlara və meşələrə çəkildilər...

Çaykənd əməliyyatı o dövrdə ən böyük və uğurlu hərbi əməliyyat idi".

Məmməd Əliyev romanda XX əsrin sonlarında baş verən olaylara bir yazıçı kimi münasibət bildirir. Onun təqdim etdiyi bu məqamda Azərbaycan xalqının mübarizlik əzminə malik olması əksini tapır: "...Mitinq və nümayişlər Azadlıq meydanında keçirilirdi. Orada olmaq, meydanı bir dəqiqə də olsun boş qoymamaq vətəndaş həmrəyliyinə çevrilmişdi. Bakı yenə inqilablar, üsyanlar və millətin həmrəyliyini nümayiş etdirən mitinq və nümayişlər şəhəri oldu..." Məmməd Əliyev Azadlıq meydanında mübarizə meydanına atılan tarixi şəxsiyyətlərin adlarını açıqlamaqla bu tarixi olayın mahiyyətinə varır: "Azadlıq meydanında yeri-göyü lərzəyə salan mitinq gedirdi... Bəxtiyar Vahabzadə, Xudu Məmmədov, Şirməmməd Hüseynov, Ziya Bünyadov çıxış edəndə meydana yığışmış bir milyondan çox insanın gurultulu alqışları ilə qarşılandı..."

Məmməd Əliyev 20 Yanvarı "Zülmət sultanının" "Zülmət gecəsi" qanlı gecə" adlandırır. Xalqımızın tarixi yaddaşına həkk olunmuş faciə "Bir yaşıl uzaq ada" romanında geniş şəkildə təsvir edilir. Xalqın qan yaddaşını bədii dillə ədəbiyyata həkk edən yazıçı bu zülmət gecəni belə təsvir edir:

"Zülmət qan ağlayırdı, qan, ölüm yağdırırdı, özü də bu qanın içində boğulurdu. "Zülmət sultanının" "Zülmət gecəsi" qanlı gecə idi. Tarixdə az-az təsadüf edilən Qanlı gecələrdən biri… Bu gecə xəyanət, nifrət və qorxudan yoğrulmuşdu…" Maraqlı məqam isə müəllifin Azərbaycanın suverenliyinin, azadlığının bu gecədən doğmasını məhz o zamanlarda baş verməsini incəliklə vurğulayır: "Ancaq… ancaq o, işıqlı səhəri doğuracaqdı. İstəsə də, istəməsə də!!... O gecə çox şeyi aşkara çıxardı… Ən başlıcası isə özümüzü, dostumuzu, düşmənimizi tanıdıq. O gecə tarixin amansız ibrət dərslərini aldıq…"

Məmməd Əliyev 20 Yanvar faciəsini dünyanın diqqətindən yayındırmaq üçün Bakı şəhərində süni şəkildə atışmaların yaradılması faktına aydınlıq gətirir. Yazıçı bu səhnəni belə təsvir edir: "Hərbi hissəyə gedən yolu bağlayıb "ekstremistlərlə döyüş" imici yaradıb həmin əraziyə heç kimi buraxmamaq!.. Odur ki, əsgərlərə ancaq barıt doldurulmuş pulemyot və avtomat gilizləri paylanmış, onlar da iki yerə ayrılaraq "döyüşmüşlər". Başlıca məqsədləri isə törətdikləri cinayətləri ört-basdır edib öz əməllərinə haqq qazandırmaqdan ibarət olmuşdur..."

Məmməd Əliyev Sumqayıt hadisələrinə də biganə qalmır. Hadisələrin Sumqayıtda azərbaycanlılar tərəfindən deyil, erməni terrorçuları tərəfindən törədilməsinə işıq salır: "...plan üzrə Sumqayıtda ermənilərin evlərinə hücumlar başladı, evləri dağıdılır, əmlakları talan olunur, şəhəri tərk etməyə məcbur edilirdilər... Bu quldur dəstəsinə başçılıq edən kim olsa yaxşıdır?..

Erməni əsilli Qriqoryan!..."

Müəllif Sumqayıt hadisəsinin səbəbsiz olmamasına da toxunur. Və bu hadisənin əsas məqsədi Ermənistanı monoetnik bir məkana çevirmək, burada yaşayan azərbaycanlıların doğma, dədə-baba yurdlarından qovulması yazıçı tərəfindən açıq-aydın şəkildə göstərilir: "Məkrli plan baş tutmuşdu. Bu bəhanəni əsas tutaraq Ermənistanda dədə-baba torpaqlarında yaşayan üç yüz mindən çox azərbaycanlı ağır işgəncə və məhrumiyyətlərlə oradan çıxarıldı... Deportasiyanın yeni və sonuncu dalğası başa çatdırıldı..."

Əsərin problematikasında hadisələrə müəllifin fəlsəfi yanaşması bizləri təsvir edilən hadisələrin mahiyyətinə varmağa vadar edir. M.Əliyevin "Anamız Yer müxtəlif taleli insanların müvəqqəti yuvasıdır, burada hərənin öz yeri var... Lap antik olimpiya stadionlarında olduğu kimi. Əgər dünyaya gəlmisənsə, yaşamalısan, yaşayırsansa, demək, haçansa getməlisən, getməlisən ki, yenidən dünyaya qayıdasan, ruhun səni böyük qayıdışa çağıracaq! Uğur qazanacaqsan, Ruhun ölməzliyinə inan, odur ki, onu təmiz saxla, nəfsini yox et, müdriklərimiz belə deyib, şirini, acısı ilə həyatı, dünyanı, insanları sev!... Sev ki, səni sevsinlər, səni yaşatsınlar..." fikirlərində həyatın öz axarında davam etməsi, həm də təkrar olunması göstərilir.

Əsərin problematikasında təsvir edilən həyat hadisələrinə yazıçının fəlsəfi yanaşması cəmiyyətin müxtəlif dövründə yaşayan, formalaşan insanlar arasındakı fərqlilikləri göstərə bilməsində də əksini tapır: "Bizim dövrün uşaqları – müharibədən sonra dünyaya gələnlər müharibə dövründə doğulanlardan xasiyyət və davranışlarına görə fərqlənirdilər. Müharibədən sonra doğulub boya-başa çatanların hərəkət və davranışlarında qətiyyətlik və sərbəstlik, bir yerə yığışıb ya idmanla, ya da digər əyləncələrlə, sərgüzəştlərlə – dağa, müşəyə getmək, getmədiyimiz yerləri görmək cəhdi, məclis qurub əylənmək, olan-qalanını dostlar üçün xərcləmək, dostluq etməyi bacardıqlarına görə seçilirdilər".

Yazıçı bu gün də aktuallıq kəsb edən müharibə və onun törətdiyi fəsadların ağrısını, acısını bədii dillə təqdim edir. Bu təqdimatda yenə müəllifin fəlsəfi düşüncələri yer alır. Belə ki, müəllif paralellər apararaq müharibə dövründə doğulan və müharibədən sonra və ya əvvəl doğulan insanlar arasındakı fərqləri göstərir: "Müharibə dövründə doğulanlarda bu xüsusiyyətlər yox idi. Onların hərəkətlərində ehtiyatlı dolanmaq, əlində olanları gizlətmək, tənhalığa çəkilmək, gizli rəqabət aparmaq meyilləri özünü göstərirdi". Yazıçı öz həyat təcrübəsindən çıxış edərək meydana çıxan bu fərqlərin həmin dövr və ya sonra formalaşmış nəslə təsirsiz ötüşməməsini də açıqlayır: "Görünür, ətraf mühitdə baş verən hadisələr insanların mənəvi-psixoloji dünyasına, genlərə təsirsiz ötüşmür...

Bunlar da, öz növbəsində, dünyaya göz açanların həyatında göyərir...”

Gənclərin formalaşması üçün ətraf mühitin müsbət rol oynaması ilə yanaşı, öz axarında inkişaf edən cəmiyyətin olması məqamı da yazıçı tərəfindən vurğulanır: “Bizim nəslin bəlkə də xoşbəxtliyi idi ki, qaynar ictimai həyata atıldıq, mübarizə apardıq, özümüzə yer tapa bildik, əslində, özümüzü dərk etdik, tapdıq... Hərə öz işi ilə məşğul ola bildi, həyatımızı daha mənalı və məzmunlu etməyə çalışdıq... 23 il bundan əvvəl yola saldığımız XX əsrin 80-ci illərinin sonlarına qədər davam etdi... Sonra fırtınalarla, təlatümlərlə üzləşdik...” Məhz təlatümlərlə dolu olan cəmiyyətdə insan amilinin deformasiyaya uğraması yazıçı tərəfindən açıqlanır. Vətəndə baş verən təlatümlərin bir çox faciələrə yol açması da müəllif tərəfindən göstərilir: “Sakit həyatımıza, yaradıcılığımıza son qoyuldu, faciəli günlərə – insan qırğınlarının faciələrinə düçar olduq, Vətən dediyimiz Ana torpaq yadelli tapdağına çevrildi, kəndlər, şəhərlər xarabalığa çevrildi, yüz minlərlə insanımız didərgin salındı!... Bunu ancaq kitablarda oxuya bilərdik...” Məmməd Əliyev bir ziyalı, bir yazıçı kimi bütün bunları ümumiləşdirərək qələmə alır, ictimaiyyətə çatdırır. Hadisələrə fəlsəfi yanaşması ilə də buna nail olur.

“Bir yaşıl uzaq ada” romanının problematikasında Azərbaycanda vaxtilə səs salmış “pampıq işi” probleminə də toxunulur. Muradın bu hadisələri xatırlaması tarixi hadisələrə bir ziyalı baxışı idi: “pambıq işinə” görə xeyli adam həbs edilmişdi”.

Məmməd Əliyev “Bir yaşıl uzaq ada” əsərinin problematikasında Muradın yaşadığı dövrün tarixi mənzərəsini yaradarkən, Azərbaycan xalqının şahidi olduğu hadisələri işıqlandırır. Məsələn, XX əsrin son onilliyində neft müqaviləsinin bağlanmasını, Surət Hüseynovun riyakar siyasi oyununu, “Vahid”, “Xəyal” banklarının ölkə əhalisini aldatmasını və s. qısa da olsa, canlandırır: “1994-cü ilin sentyabrın 20-də, Heydər Əliyevin qətiyyəti ilə neft müqaviləsi bağlandı...

...“Vahid” bank öz fəaliyyətini ölkədəki inflyasiyaya rəğmən qurmuşdu. İşsizlik baş alıb gedirdi. Hər açılan bankın arxasında müəyyən mafioz qüvvələrin qruplaşması dururdu.

“Xəyal” bank Bakıxanov küçəsinin İzmir küçəsi ilə qovuşduğu yerdə, hündürmərtəbəli binanın zirzəmisində təsis olunmuş və fəaliyyət göstərirdi. Guya bank müştərilərinə 20% aylıq pul qaytaracaqmış...”

Yazıçının “Həsrətin o üzü”, “Karvan köçər, ötər gedər sədası”, “Mavi-yaşıl gözlərin işığı”, “Bir yaşıl uzaq ada” romanlarının yer aldığı tetralogiyanın problematikasının bir-birilə bağlı olması diqqətdən yayınmır. Belə ki, Məmməd Əliyev tetralogiyasına daxil olan əsərinin problematikasında açıqladığı bir problemi sonra qələmə aldığı əsərlərində açıqlayır. Məsələn, tetralogiyanın üçüncü kitabı olan “Mavi-yaşıl gözlərin işığı” əsərində ailə quran Muradın ailə səadətinin uzun çəkməməsinin əsl səbəblərini açıqlayarkən həyat təcrübəsinə əsaslanaraq, çıxartdığı nəticə kimi görürük. Müəllif bu əsərində hadisələri belə təqdim etməsində haqlı olmasını tetralogiyasının dördüncü cildi olan “Bir yaşıl uzaq ada” romanında təsdiqləyir. Yazıçı yeni qurulmuş ailədəki qüsurları məhz gənc ailənin süquta uğrayacağının labüd və qaçılmaz olduğunu təsvir etməsi, yeni gəlinin ərinə saymamazlıq etməsini, “Sən kimsən ki, mənim yolumu kəsirsən, çəkil yolumdan!” deyən gəlinin özbaşınalığının, həm də mənəvi aləminin boşluğunun nəticəsi olması yazıçı tərəfindən təsdiq edilir. Yazıçı “Bir yaşıl uzaq ada” romanında bu qadının dünyaya gətirdiyi oğluna belə düzgün təlim-tərbiyə verə bilməməsi ilə bu məsələni tamamlaya bilir. Keçmiş həyat yoldaşının nöqsanları Muradın keçmiş qayınatasının, yəni qızın atasının dili ilə təqdim edilir: “Mən bilirdim ki, sən öz yerini tutacaqsan. Həmişə sənin tərəfində olmuşam. Mən evdəkilərin öhdəsindən gələ bilmədim, kimin haqlı, kimin haqsız olduğu artıq hamıya məlumdur”. Məmməd Əliyev tetralogiyaya daxil olan romanları yalnız Murad və ya digər obrazlarla əlaqələndirmir. Həm də mövzu baxımdan bir-birilərini tamamladığını da əks etdirir.

Əsərin problematikasında ana dilə yazıçının həm bir ziyalı, həm də bir azərbaycanlı kimi münasibət bildirməsi qabarıq şəkildə əksini tapır. Müəllif toxunduğu ana dili problemini bir alim kimi dərindən görür və biganə qala bilmir. Bu məqama oğlu Turalla bağlı epizodda aydınlıq gətirir. Uşaqlarımızın ana dilə sevgi və bağlılığını körpəlikdən aşılanmasını təbliğ edir. Əsərdə Muradın oğlu

Turalın ana dilində danışmaqda çətinlik çəkməsinin səbəbini işıqlandıran müəllif bunu əsərdə qısa epizodda geniş şəkildə açıqlayır: "Həyətə çatanda Turalın uşaqlarla oynadığını gördü, maşından düşüb ona yaxınlaşdı, qucağına götürüb öpdü. Tural yarı rus, yarı ana dilimizdə danışmağa başladı. Nənəsi onu gürcü dilində, Adri ilə Nadya rus dilində, Murad isə öz dilimizdə danışdırırdı. Uşaq da bəzən hər dildən bir-iki söz götürüb cavab verirdi, "hibrid" dil alınsa da, onu başa düşmək olurdu..."

Romanın problematikasında yazıçı cəmiyyətdə ana dilində danışmamağı bir milli faciə kimi qabardır. Vəzifə, səlahiyyət sahiblərinin Azərbaycan dilində, ən əsası isə dövlət dilində danışmadıqlarını göstərməsi bu məqama diqqət yönəldir. Əsərdə vəzifə sahiblərinin, hətta nazirin Muradla dialoqlarında bunun şahidi oluruq. Dövlət dili Azərbaycan dili olmasına rəğmən dövlət qurumlarında Azərbaycan dilində danışılmaması ürəkağrısı ilə təsvir edilir: "Rafiq Feyzullayev onu qəbul edəndə bir qədər özünə gəlmişdi.

Nazir onu görən kimi ayağa qalxıb stolunun yanında dayandı, Murad yaxınlaşan kimi yarı rus, yarı azəricə nə isə deyib onu qucaqladı, sonra gülümsəyərək dilləndi:

– Помнишь, когда мы направили тебя в Экономический Институт я обещал, что мы вернем тебя сюда, а ты отходишся от нас!..

(Yadındadırmı, biz səni İqtisad Universitetinə yönləndirəndə, söz verdim ki, səni bura qaytaracağıq, indi isə bizdən uzaqlaşırsan).

Murad cavab verdi:

– Помню, Рафик Бабашевич, хорошо помню, но ЦК Партии рекомендовали…

(Yadımdadır, Rafiq Babaşeviç, yaxşı yadımdadır. Ancaq... Partiyamızın Mərkəzi Komitəsi mənim namizədliyimi...)"

**Romanın bədii obrazları**

Məmməd Əliyevin tetralogiyasına daxil olan dörd əsərin "Həsrətin o üzü" (2021), "Karvan köçər, ötər gedər sədası" (2021), "Mavi-yaşıl gözlərin işığı" (2023), "Bir yaşıl uzaq ada" (2025) romanlarında əsas obraz kimi Murad çıxış edir. Bu obraza rəğmən tetralogiyada həm ikinci dərəcəli, həm də yardımçı obrazlar yaddaqalan ştrixlərlə təsvir edilir. Məsələn, romanda bir cümlə ilə Qanlı Yanvar faciəsini törətmiş yaraqlıların mənfur surətləri gözümüzdə canlandırılır: "Əsgər və zabitlərə dəmir dəbilqə, sifətlərini qoruyan, güllə keçirməyən şüşədən önlük verilmişdi. Əyinlərindəki böz şinelin altından güllə keçirməyən jilet (bronjilet) geymiş əsgərlərin donuq sifətində heç bir ifadə oxunmurdu...

Onlar sanki Əfqanıstandakı kimi döyüşə hazır vəziyyətdə idilər... Sir-sifətlərindən zəhrimar yağırdı".

Romanda Məmməd Əliyevin təqdim etdiyi mənfur surətlərdən biri də erməni terrorçusunun ümumiləşdirilmiş surətidir. Onların etdiyi əməllər fonunda mənfur simaları yazıçı tərəfindən açıqlanır: "Yerə-göyə sığmayan erməni törətdiyi qanlı faciələrdən doymaq bilmirdi. ...Qazax-Bakı marşrutu ilə hərəkət edən "İkarus" markalı sərnişin avtobusu ermənilər tərəfindən partladıldı. Otuz nəfərdən çox vətəndaşımız həlak oldu və yaralandı. Bu, Ermənistan adlı terrorçu dövlətin apardığı müharibə idi..."

Erməni terrorçuların mənfur əməl və niyyətləri 1988-ci ilin noyabr ayında Hamamlıda, Spitak adlandırdıqları şəhərdə baş vermiş zəlzələdən zərərçəkənlərə kömək üçün getmiş 70 nəfər vətəndaşımızı qəsdən ölümə məhkum etmələri faktının yazıçı tərəfindən təqdim edilməsində də açıqlanır. Müəllif bir cümlə ilə həm tarixi hadisəyə nəzər salır, həm də erməni yaraqlılarının insanlığa sığmayan əməllərini işıqlandırır: "...Zəlzələdən zərərçəkənlərə kömək üçün Azərbaycan 70 nəfər vətəndaşımızı təyyarə ilə oraya yola saldı. Dumanlı hava şəraitində İrəvana uçan təyyarənin yerə enməsi üçün qəsdən səhv koordinatlar verdilər... Təyyarə dağa çırpıldı. 70 sərnişindən 69-u yerindəcə həlak oldu, bir nəfər ömürlük şikəst qaldı".

Məmməd Əliyevin romanda təsvir etdiyi erməni terrorçuları real insanların prototipləridir.

Məsələn, səksəninci illərin sonlarında Azərbaycan Opera və Balet Teatrının binasında aparılan təmir işlərində iştirak edən Təchizat İdarəsinin müdiri Ruben Qasparyanın bu təmiri həyata keçirməsi zamanı törətdiyi mənfur əməlləri açıqlanır: "Səksəninci illərin sonlarında Azərbaycan Opera və Balet Teatrının binasında aparılan təmir-abadlıq işləri başa çatmaq üzrə idi. Bu iş yüksək sənətkarlığı ilə tanınan qocaman bərpaçı Məmməd Süleyman oğlunun briqadasına həvalə edilmişdi. Bakıdakı bir sıra tarixi binaların təmir və bərpa işində iştirak edən qocaman usta binanı əvvəlki görkəminə gətirmək üçün əlindən gələni edirdi. "Azərreklam" İstehsalat Birliyinin Baş direktoru Efim İsakoviç hər gün onlara baş çəkir, material və bəzək əşyalarının vaxtlı-vaxtında tapılıb gətirilməsi üçün Təchizat İdarəsinin müdiri Ruben Qasparyana tapşırıqlar verirdi..." Erməni terrorçusunun mənfur əməllərindən biri yenicə təmir olunmuş Opera və Balet Teatrını yandırmasıdır. Müəllif bu əməli incə nüanslarla təqdim edir: "Opera və Balet teatrının təmiri başa çatmışdı. Respublika rəhbərliyi təmiri başa çatdırılmış binanın açılışına gələcəkdi. Lakin bu tədbirə bir neçə gün qalmış bina burada işləyən erməni əsilli işçilərin təxribatı ilə yandırıldı".

Müəllifin tetralogiyasında təqdim edilən obrazlar tetralogiyaya daxil olan əsərlərdə təkrar şəkildə rast gəlinir. Murad obrazından əlavə, Muradın anasının, keçmiş sevgilisi olmuş Səadətin, oğlu Turalın anası Adrinin, keçmiş qayınatasının və başqalarının obrazlarını görmək mümkündür.

Yazıçı "Karvan köçər, ötər gedər sədası" romanında təsvir etdiyi Səadət surətini "Bir yaşıl uzaq ada" əsərində Muradla Səadətin qarşılaşması səhnəsində təqdim edir. Kurs yoldaşlarının Həqiqətin evində bir yerə yığılması vaxtilə bir-birilərini sevən iki nakam insanın da qarşılaşmasına səbəb olur: "Səadət də gəlmişdi. Yaxınlaşıb salam verdi. Gözlərinin ətrafında qırışlar əmələ gəlmiş, saçlarına dən düşmüşdü. Baxışlarında qayğı, kədər ifadəsi var idi... Murad gözaltı onu süzdü... Onun Səadətindən bu qadında çox az şey qalmışdı. Əvvəlki qürurundan, şuxluğundan əsər-əlamət qalmamış, əriyib getmişdi. Muradın, nədənsə, ona ürəyi yandı, təəssüf hissi keçirdi, "Görəsən, buna nə olub? Görkəmi də, xasiyyəti də dəyişib, acizləşib", – deyə düşündü".

Məmməd Əliyev "Karvan köçər, ötər gedər sədası" romanında Səadətin bir qadın kimi xoşbəxt olmamasını vurğulayır. Bu əsərdə də Muradın Səadətin acınacaqlı halı üçün həyəcanları əksini tapır: "Səadət... Əyninə tünd qəhvəyi rəngli boğazı qatlanmış yun köynək geymişdi. Qara, şəvə saçları uzandığından alnına tökülmüş, bənizi daha da ağarmışdı. Nəzərləri çölə zillənmiş, haraya isə diqqətlə baxırdı. Onu bu görkəmdə heç vaxt görməmişdim..."

Murad kurs yoldaşları Nəcibənin dediklərindən sevdiyi qadının 5-6 il bundan qabaq dul qaldığını, ağır vəziyyətdə olmasını özü üçün aydınlaşdırır: "Nəcibə bir az da yavaşdan dilləndi:

Əri ölüb, iki uşaqla tək qalıb, güzəranı da yaxşı deyil, kömək eləyəni yoxdur... Qardaş, bacı da öz yerində!... Elə bir həyatda yaşayırıq ki, heç kim heç kimə əl uzatmır!....

Murad özünə gəlib soruşdu:

– Bu nə vaxt olub?

Nəcibə:

– 5-6 il bundan qabaq..."

Məmməd Əliyev Muradın bir zamanlar aşıq olduğu qadının – Səadətin həyatını qısa bir dialoq vasitəsilə canlandırır, bununla tetralogiyada rastlaşdığımız Səadətin dolğun, bəxtsiz obrazı canlandırılır.

Məmməd Əliyev "Karvan köçər, ötər gedər sədası" romanındakı Səadəti "Bir yaşıl uzaq ada" romanında canlandırdığı kimi, "Mavi-yaşıl gözlərin işığı" əsərində təsvir etdiyi Adrinin, Turalın obrazlarını "Bir yaşıl uzaq ada" romanında canlandırır.

Məmməd Əliyev "Mavi-yaşıl gözlərin işığı" romanında əsərin baş qəhrəmanı Muradın keçmişə və gələcəyə bağlılığını, böyük eşqini əks etdirməklə yanaşı, mavi-yaşıl gözlü Turalın da məhz Muradın bu günü və gələcəyi olmasını vurğulayır. "Bir yaşıl uzaq ada" romanında da yazıçı Turalı, Adrini xatırlayır: "...Onun indi Adrisi, mavi-yaşıl gözlü balası var idi!.. Adrinin sevgisi ona "ikinci nəfəs" vermiş, həyata qaytarmışdı! Adrinin sevgisi ilə ilham və təsəllisini tapmış, inamı özünə

qayıtmış, uğurlar qazanmışdı!..”

Muradın “Bir yaşıl uzaq ada” romanında Muradın kamil obrazı Adrinin xəstəliyi ilə bağlı keçirdiyi həyəcanlarında özünü göstərir. Belə ki, Adrinin keçirdiyi iztirablara bir ər kimi, oğlu Turalın ayrılıq zamanı qışqırtılarına isə bir ata kimi davam gətirə bilmir. Keçirdiyi stres Muradın zəif insan olmasını deyil, onun sevdiklərinə, doğmalarına həssaslıqla yanaşmasını əks etdirir. Ailə dəyərlərini yüksək qiymətləndirən Murad üçün Adrinin xəstəliyi ona mənəvi zərbə olur, sağlamlığına da təsirsiz ötüşmür. Stresdən yaddaş problemi, insult xəstəliyinin ilkin əlamətləri ilə üzləşən Muradın obrazı incəliklə canlandırılır. Oxucu onu oğlu Turalı sevən bir ata, həyat yoldaşını dəyərləndirən bir ər, ailə bütövlüyünü qoruyan bir ailə başçısı kimi görür. Adrinin xəstəliyi ilə bağlı həmin dönəmdə yaddaş problemi yaşaması romanda yazıçı tərəfindən incə nüanslarla təqdim edilir: “...Gələn Məmmədəli idi. O, Murad yatan otağa keçib onu tərpətdi.. Gözlərini açanda Məmmədəlini başının üstündə gördü, öz-özünə danışırmış kimi deyindi:

– İş olmadığı üçün yatıb qalmışam, sən keç o biri otağa, bu saat geyinib çıxıram!... Məmmədəli onu təlaşla süzdü:

– Murad, biz Bakıda deyilik, Nadyanın evində, Moskvadayıq! Sənə nə olub, ayağa dur, möhkəm ol!

Bunları deyib o, üzünü çevirdi.... Sakit-sakit ağlamağa başladı...

Muradın yaddaşı itmişdi... Bakı ilə bu şəhəri səhv salırdı...”

Müəllif bu yaddaş itkisinin səbəbinə aydınlıq da gətirir: “Onda əmələ gələn qeyri-adi davranışı, qısa, məntiqsiz cavabları, əhatəsində olduğu adamları, ailəsini xatırlaya bilməməsi ruhi sarsıntılarının başqa fazaya keçməsindən xəbər verirdi. Onu buradan təcili ayırmaq lazım idi... Gözlərini bir nöqtəyə zilləyib durmasından görünürdü ki, o, kimləri isə xatırlamaq, onlardan danışmaq istəyir, lakin bacarmırdı...”

“Bir yaşıl uzaq ada” romanında Muradın kamil obrazı onun fədakar insan olmasında özünü göstərir. Məhz Qubada, “xalqların dahi atası” Stalinin bir barmaq işarəsi və ya bircə kəlmə sözü ilə 1953-cü ildə bağlanan ali məktəb”in, yəni əvvəlki Müəllimlər İnstitutunun əvəzində açılan ali məktəbin yaranması və formalaşması sahəsindəki xidmətləri Murad obrazının bir ziyalı, bir maarifpərvər olmasını gözümüzdə bir daha canlandırır.

Murad obrazından bəhs edərkən onun yazıçının özünün prototipi olması məqamı da düşündürücüdür. Buna tetralogiyanın digər hissələri haqqında fikir yürütmüş tədqiqatçıların yazılarında da rastlaşmaq mümkündür. Romanda hadisələrin yazıçının taleyində baş vermiş hadisələrlə oxşar olması, eyniyyət təşkil etməsi, yazdığı məqalə və əsərlərin romanda xatırlanması, həmin yazıların romanlarda eynən verilməsi və s. məqamların təqdimi bizi belə düşünməyə vadar edir. “Bir yaşıl uzaq ada” romanında Muradın “Quba-Şabran folklor qaynaqları” mövzusunda məruzə etməsinin, bu regionun folklor örnəkləri haqqında əsərinin nəşr olunması vurğulanır: “O özü də “Quba-Şabran folklor qaynaqları” mövzusunda məruzə etdi. Sonralar bu regionun folklor örnəkləri haqqında kitabı nəşr olunacaqdı”. Qeyd etmək lazımdır ki, yazıçının, yəni Məmməd Əliyevin özünün fil.e.d. Əziz Ələkbərli ilə tərtib etdiyi “Quba-Şabran folklor örnəkləri” kitabının 1-ci hissəsi 2013-cü ildə AMEA Folklor İnstitutunun Elmi Şurasının qərarı ilə nəşr olunub. Bu fakt tədqiqatçılara məhz Murad obrazının Məmməd Əliyevin prototipi olması fikrini yürütməyə əsas verir.

Muradın Məmməd Əliyevin prototipi olması şahidi olduğu tarixi olayları əsərin qəhrəmanının dili ilə təqdim edərkən özünü büruzə verir. Bu amil yazarın 17 yanvar 2019-cu ildə “525-ci” qəzetdə nəşr edilmiş “O məşum gecə (gözlərim önündə baş vermiş hadisə olduğu kimi)” adlı məqaləsini olduğu kimi romanda 20 Yanvar hadisələrinin təsviri zamanı istifadə etməsində təsdiqini tapır. Bu məqalənin romanda təqdimi romanın publisistika ilə qarışıqlığını göstərir. Publisistika ilə romanın qarışıqlığı fonunda əsərdə təsvir edilən 20 Yanvar hadisəsini əks etdirən hadisələrin şahidinə çevrilirik. Publisistika ilə romanın qarışıqlığı əsərin janrına təsir edə bilməsə də, məqalənin Məmməd Əliyevə aid olması qətiyyətlə Muradın müəllifin prototipi olmasını təsdiq edir. Müəllif qələmə aldığı

məqaləsindən istifadə etməklə, əsərdə baş verən hadisələri həm işıqlandırır, həm də bir ziyalı kimi münasibətini bildirir: "...Birdən açılan top atəşi bütün məhəlləni ayağa qaldırdı. Yaylım atəşi "Qələbə" kinoteatrının yaxınlığından açılmışdı. Saat $24^{00}$ idi".

"Bir yaşıl uzaq ada" romanında tarixi şəxsiyyətlərin obrazlarının təqdimi də maraq kəsb edir. Bu obrazlar içərisində Heydər Əliyevin, Xəlil Rza Ulutürkün, Aydın Məmmədovun, Elmira Qafarovanın, Lidiya Rəsulovanın və başqalarının epizodik təqdimatlarında dolğun obrazlarının təqdimi ilə üzləşirik.

Məmməd Əliyev Heydər Əliyevin kamil obrazını "Bir yaşıl uzaq ada" əsərində oxucuya təqdim edir. "8 iyun 1993-cü ildə o, Bakıya dəvət olunan, "15 iyun 1993-cü ildə Milli Məclisin sədri seçilən Heydər Əliyevin xalqın ağır vaxtında bir xilaskar kimi tarixi arenada təkrar yer alması incəliklə təsvir edilir: "Bu ağır yükün altına girən lazım idi ki, xalqı bu fəlakətdən qurtarsın.

Bəli, elə oğul lazım idi Azərbaycana!

Var idi elə bir oğul!

O, Azərbaycanın şanlı, müzəffər oğlu Heydər Əliyev idi!

Onun hakimiyyətə qayıdışı tarixi zərurətdən yaranmışdı!..

Xalq öz xilasını ancaq onda görürdü!.."

Məmməd Əliyev "Bir yaşıl uzaq ada" romanında hakimiyyəti əldən vermiş siyasi qüvvələrin, hərbi-siyasi qruplaşmaların cəmiyyətdə özbaşınalıq yaratmaq istəkləri, dövlət çevrilişinə cəhdləri və s. məqamları professional şəkildə qarşısını ala bilmiş Heydər Əliyevin siyasi peşəkarlığına da biganə qalmır, faktlara əsaslanaraq bədii dillə təsvir edir: "1995-ci ilin martında xüsusi təyinatlı hərbi bölüm silahlı üsyana qalxdı...

Heydər Əliyev özünəməxsus qətiyyətlə belə hadisələrin qarşısını alırdı..."

Məmməd Əliyev romanda Azərbaycan Xalq şairi, ölümündən sonra "İstiqlal" ordeni ilə təltif edilmiş Xəlil Rza Ulutürkün qısa bir epizodda mübariz aşiqi kimi kamil obrazını yaradır: "İzdihamın önündə Xəlil Rza Ulutürk gəlirdi. Əlindəki bayrağı yuxarı qaldırmış şair nə dedisə, izdiham irəli yeridi, ordu qüvvələri geri çəkilməyə məcbur oldu. Nümayişçilər Salyan rayonundan gəlmiş minlərlə insana yol verdilər. Şair əlindəki bayrağı yanındakılardan birinə verib, daş pillələrlə Lenin heykəlinin yanına çıxdı, özünün məşhur "Afrikanın səsi" şeirini deməyə başladı!..." Yazıçı şeirdən parça verməsə də, oxucunun şüurunda şairin dillər əzbəri olan, müstəqilliyin manifestinə çevrilmiş bu şeirindən olan bənd canlanır:

*Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram!*
*Qolumdakı zəncirləri qıram gərək! Qıram! Qıram!*
*Azadlığı istəmirəm bir həb kimi, dərman kimi,*
*İstəyirəm Səma kimi, Günəş kimi! Cahan kimi!* [3, s.20]

Xəlil Rza Ulutürkün bu poetik nümunəsi xalqımızın azadlıq istəyini, xalqın mübarizə əzmini, üsyankar ruhunu yada salır.

Romanda xalqın mübarizə əzmini sınmağa qoymayan, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması sahəsində gördüyü fədakarlığı ilə tarixdə iz buraxan Azərbaycan qadının obrazının əsərdə təqdimi diqqəti cəlb edir. Yazıçı 20 Yanvar faciəsi ilə əlaqədar olaraq yanvar ayının 21-də Azərbaycan SSR Ali Sovetinin Fövqəladə iclası çağırması, Ali Sovetin sədri Elmira xanım Qafarovanın dövlət səviyyəsində baş vermiş qətliamı pisləyərək bəyanət qəbul edilməsi təklifini qəbul etməsi və s. fonunda Elmira Qafarovanın obrazını oxucuya təqdim edir. Elmira Qafarovanın Mərkəzə etiraz notasının onun həyatı bahasına başa gəlməsi Məmməd Əliyev tərəfindən xüsusi olaraq vurğulanır: "Elmira (Elmira Qafarova – S.Ş.) xanım xəstə olduğundan müalicə olunurdu... Müalicə zamanı ona insan bədənində xərçəng xəstəlikləri əmələ gətirən iynə vurdular... Almaniyada xərçəng xəstəlikləri üzrə tanınmış mütəxəssis, əslən azərbaycanlı olan Azər adlı həkim onu Almaniyaya (Köln şəhəri) müalicəyə aparsa da, onu amansız ölümün pəncəsindən xilas edə bilmədi..."

Romanda Azərbaycan ədəbiyyatı və mədəniyyəti sahəsində xidməti olmuş insanların epizodik şəkildə təqdim edilən obrazları da diqqətdən yayınmır. Müəllif Aydın Məmmədov, Bəhlul Abdulla, Yaşar Qarayev və digər söz xiridarlarını xatırlamaqla onları yaddaşlara həkk etdirməyə cəhd edir. Məsələn, Azərbaycan dilçiliyi sahəsində əvəzsiz xidmətləri olmuş dilçi, türkoloq, tənqidçi, siyasətçi alim, şəhid Aydın Məmmədovun obrazının təqdimi də əsərdə yaddaşlara həkk olunur: "Sabir, Bəhlul və Aydın o vaxtlar yaranan Azərbaycan Xalq Cəbhəsi İdarə Heyətinin – Məclisin üzvü idilər. Aydın Məmmədov türkologiya sahəsində tanınmış alimlərdən biri olmaqla rus və Azərbaycan dillərini mükəmməl bilir, tərcümələr edirdi, türk dillərinin müqayisəli qrammatikasından doktorluq dissertasiyası işini tamamlamaq üzrə idi. O vaxtlar SSRİ-də yeganə məcmuə olaraq buraxılan, nüfuzlu "Sovet türkologiyası" jurnalının elmi katibi kimi bütün ölkədə tanınırdı".

Romanda folklorşünas, ədəbiyyatşünas, tənqidçi Bəhlul Abdullanın obrazı yalnız bir folklorşünas kimi deyil, həm də xalqın azadlıq mücadiləsinə qoşulmuş ziyalı kimi təqdim edilir. Azərbaycan ədəbiyyatında əvəzsiz xidmətləri olan Bəhlul Abdullanın siyasi görüşləri açıqlanır. Yazıçı Bəhlul Abdullanın siyasi görüşlərinə görə həbs olunmasını romanda təsvir edir: "Gecə yarıda ikən DTK əməkdaşları bir neçə hərbçi ilə Bəhlulun evinə gedib onu böyük oğlu ilə birlikdə birbaşa Ulyanovsk şəhərindəki həbsxanaya salıb barəsində cinayət işi açaraq istintaqa başlayırlar". Məmməd Əliyev söz xiridarlarının öz əqidələrinə görə həbs edilmələrini xüsusi şəkildə vurğulayır. Məsələn, yazıçı Xalq şairi Xəlil Rza Ulutürkün də siyasi baxışlarına görə həbs olunmasına nəzər salır: "Xəlil Rza və başqa bir neçə azadlıq mücahidi qanlı "Lefertova" həbsxanasına salınır... Orada özünün "Lefertova həbsxanasında" şeirlər silsiləsini yazır". Bəhlul Abdulla, Xəlil Rza Ulutürk kimi ziyalılarımızın həbsi bizə Azərbaycan xalqının üzləşdiyi repressiya illərini və onun qurbanlarını yada salır: Hüseyn Cavidi, Mikayıl Müşfiqi və digər ziyalılarımızı...

"Bir yaşıl uzaq ada" romanında da tetralogiyanın digər hissələrində olduğu kimi, Azərbaycan ədəbiyyatında özünəməxsus imzaları olan insanlar, sadəcə, xatırlanmır, epizodik məqamlarda olsa belə, onların dolğun, yaddaqalan obrazları oxucuya təqdim edilir. Məsələn, Məmməd Cəfərin, Yaşar Qarayevin və digər ziyalılarımızın romanda təqdim edilən qısa epizodlarda dolğun obrazları ilə rastlaşırıq. Bu həmin ziyalıların ömürlərinin bir məqamını da əks etdirir: "...O, Məmməd Cəfər müəllimin yanına qalxanda yanında Yaşar Qarayevi gördü. Dəhlizdə dayanıb gözləmək istəyirdi ki, onu içəri çağırdılar. Onlarla görüşüb əyləşdi. Yaşar müəllimin qabağında kağız qovluğun içində təzəcə tamamladığı monoqrafiyası, üstündə isə Məmməd Cəfər müəllimin yenicə qol çəkib imzaladığı resenziyası var idi. M.Cəfər müəllim deyirdi:

Bu ilin nəşriyyat planı təsdiq olunsa da, biz Mərkəzi Komitədən və Dövlət nəşrkomundan icazə alarıq ki, əsərin bu il, növbədənkənar nəşr olunsun. Yəqin ki, etiraz etməzlər, odur ki, yaxşı bir məktub hazırla, "daşdan keçən" olsun, o vaxt müsbət cavab verərlər..." Müəllif bir cümlə ilə Məmməd Cəfərin həm yetişdirmələrinə, həm də işçilərinə qayğı ilə yanaşmasını, həmçinin onların əsərlərinin nəşri üçün həyəcan keçirməsini əks etdirir. Müəllif sadəcə, bu hissləri sadalamır, bununla da Məmməd Cəfərin insani keyfiyyətlərə malik olan obrazını canlandırır.

Romanda Məmməd Cəfərin, Yaşar Qarayevin Azərbaycan ədəbiyyatının təəssübkeşi olmaları da qabardılır. Bu günümüzdə də Azərbaycan ədəbiyyatşünaslığında həmişə aktuallıq kəsb edən, çox təəssüflər olsun ki, hələ də həllini tapmayan ədəbiyyat nəzəriyyəsini bütöv şəkildə əhatə edən dərsliyin ya monoqrafik tədqiqatın yerinə yetirilməsi istəyi ziyalı alimlərimizin bu problemi düşündüklərini də əks etdirir. Məmməd Cəfərin, Yaşar Qarayevin bu kimi problemləri düşünən şəxslər, ziyalılar kimi obrazları canlandırılır. Yaşar Qarayevin Məmməd Cəfərə müraciətinin əsərdə təqdim edilməsində müəllif bunu açıqlamağa nail olur: "– Cəfər müəllim, biz Muradı bir neçə layihəyə qoşaq, qoy əlaqə saxlasın, sizin rəhbərliyinizlə bir ədəbiyyat nəzəriyyəsi monoqrafiyası qoyaq ortalığa.

Məmməd Cəfər müəllim:

– Mən bu işi sizə tapşırmışam, yeni düşüncə tərzi ilə o kitabı yazmaq lazımdır". Bununla da Məmməd Cəfərin, Yaşar Qarayevin yeni düşüncə tərəfdarları olan alim kimi obrazı Məmməd Əliyev tərəfindən canlandırılır.

"Bir yaşıl uzaq ada" romanında Birinci Qarabağ müharibəsində şəhid olmuş qəhrəman oğul və qızların obrazlarının təqdimi də maraqlıdır. Dolğun və incəliklə təqdim edilən Salatın Əsgərovanın, Çingiz Mustafayevin və digər azadlıq uğrunda şəhid olmuş qəhrəmanlarımızın obrazları həm şəhidliyin ali bir duyğu olmasını, həm də tarixi faktları təbliğ edir. Məsələn, Azərbaycanın Milli Qəhrəmanı Salatın Əsgərovanın xatırlanması da tarixi hadisələrə nəzər salınmasıdır. Salatın Əsgərova 1991-ci il yanvarın 9-da Laçından Şuşaya yollanarkən Qaladərəsi kəndi yaxınlığında Ermənistan Silahlı Qüvvələri tərəfindən qətlə yetirilən Azərbaycanın yeganə şəhid xanım jurnalistidir. Yazıçı Salatın Əsgərovanın Qarabağda törədilən erməni terrorçularının cinayətlərini ictimaiyyətə çatdırmaq üçün Şuşa-Laçın bölgəsinə yola düşməsinə toxunur, bu faciənin baş verməsini vurğulayır: "Onu rus ordusunun yüksək rütbəli zabitlərindən biri xidməti hərbi maşınında aparırdı. Şuşa yaxınlığındakı Qaladərəsi kəndindən keçərkən onlar erməni quldur dəstəsinin mühasirəsinə düşdü, sorğu-sualsız hər ikisi vəhşicəsinə öldürüldü. Bu faciənin qurbanı olan jurnalist xanımın ölümü xalqı sarsıtdı". Müəllif bu qısa epizodla Azərbaycanın yeganə şəhid xanım jurnalistinin obrazını canlandırır.

Müəllif epizodik şəkildə Xocalı faciəsini dünyaya çatdıran Azərbaycanın Milli Qəhrəmanı, ANS televiziyasının telereportyoru Çingiz Mustafayevin də obrazını bədii dillə təqdim edir: "Xəyanətlər baş alıb gedirdi. ANS televiziyasının telereportyoru Çingiz Mustafayev qoşun bölmələrinin Laçından çıxarılmasını canlı yayımda bütün millətə göstərmişdi. Az sonra güllə ilə susdurulmuşdu..."

Birinci Qarabağ müharibəsinin şəhidlərinin obrazını yaratmağa qadir olan müəllif, həm də xalqının ağır vaxtında ona xəyanət edənlərin obrazlarını incə detalları ilə açıqlayır. Məsələn, "Bir yaşıl uzaq ada" romanında Müdafiə naziri olmuş Rəhim Qazıyevin səhlənkarlığı, səriştəsizliyi ucbatından yaranan xaosu, torpaq itkilərimizi və s. təsvir etməklə onun obrazını oxucunun gözündə canlandırır. Romanda Birinci Qarabağ müharibəsi zamanı keçirilən xeyriyyə marafonları, onlardan əldə olunan vəsaitin Müdafiə Nazirliyinə verilməsi zamanı baş verən hadisələrin nəqli o dövrdə müdafiə naziri olmuş Rəhim Qazıyevin fəaliyyətinə işıq salır. Vətənin ağır vaxtında yardım etmək istəyən insanlara nazirin biganəliyi onun sonrakı nazir kimi fəaliyyətində də özünü göstərməsinin də şahid olduq. Yazıçı nazirin biganəliyini, yığılan pulları öz məqsədləri üçün istifadə edəcəklərinə əminlik və s. əsərdə təsvir edilir: "...Murad komissiya üzvləri ilə birlikdə pul yığılmış iri çantanı götürüb qəbul otağına – polkovnik Akif Şiriyevin otağına girdilər. Polkovnik çantanı görəndə qımışıb dilləndi:

– Nə qədərdir?

Murad cavab verdi:

– Doqquz yüz səksən beş min manat...

O, təəccüblə məbləği təkrar etdi:

– 985 min manat?

Murad:

– Bəli.

Polkovnik:

– Bu pula dörd ədəd tank almaq olar! Lap yaxşı!... Çox sağ olun! Pulları qoyun burada, özümüz yerbəyer edərik! Siz gedə bilərsiniz!

Rayon İcra Hakimiyyəti başçısının müavini Zakir müəllim səsini qaldırdı:

– Necə yəni çıxın gedin?! – Biz Rəhim Qazıyevi görməliyik, pulları isə aktla qəbul edib bizə sənəd verməlisiniz!.."

Nazirin onları qəbul etməməsi onun insanlara, həmçinin öz vəzifəsinə biganəliyini əks etdirir.

Nazirin biganəliyini yazıçı belə təqdim edir: "Heç kimin üzünə baxmadan danışırdı:

– Bilirsiz, məsələ təkcə pulda, silahda deyil... Başa düşürəm, böyük zəhmət çəkmisiz...

O, kabinetindəki şkafın qapılarını taybatay açıb göstərdi:

– Baxın, bəs qədər pulumuz var, ancaq vəziyyət başqadır...

Gələnlər başdan ayağa şkafa qablanmış pulları gördülər...

O, köməkçini çağırıb göstəriş verdi:

– Pulları təhvil alıb mənim imzamla onlara arayış verin!.."

Yazıçı Rəhim Qazıyevin, yəni bu "bəy"in hərəkətlərinin nəticəsi kimi Şuşa xəyanətinin baş verməsini də əsərində vurğulayır: "...Bu hadisədən cəmisi dörd gün sonra Şuşa yeni bir xəyanətin qurbanı olacaq, şəhər ermənıyə təslim ediləcəkdi!..." Müəllif xalqın könüllü şəkildə cəbhə üçün yığılan pulları belə lazımi məqsədlər üçün istifadə edilməməsinin ağır nəticəsi məhz Birinci Qarabağ müharibəsi dövründə Şuşanın xəyanətin nəticəsi kimi təslim edilməsi ilə sonlanmasına da işıq salır. Bütün bunlar Rəhim Qazıyevin ümumiləşdirilmiş obrazında o dövr səhlənkar insanların obrazlarını canlandırır.

**Romanın bədii dili**

"Bir yaşıl uzaq ada" romanında hadisələr tetralogiyaya daxil olan digər əsərlərdə olduğu kimi, əsasən, tetralogiyanın əsas qəhrəmanı Muradın dili ilə təqdim edilir. Xüsusi vurğulamaq lazımdır ki, tetralogiyadakı əsərlərdə baş obraz olan Muradın təhkiyəsi ilə yazıçı təhkiyəsi arasındakı sərhədlər bəzən itir. "Bir yaşıl uzaq ada" romanında da tetralogiyanın digər kitablarındakı kimi, yazıçı təhkiyəsi Muradın təhkiyəsi ilə eyniləşdirilir.

Məmməd Əliyev "Bir yaşıl uzaq ada" əsərində də müxtəlif sahələrə aid istifadə etdiyi terminləri məqamında düzgün izah etməsi ilə diqqəti cəlb edir. Yazıçının istifadə etdiyi bu terminlər əsərin dilinə çətinlik gətirmir, əksinə, oxucu üçün təsvir olunan hadisənin mahiyyətinə varmağına vadar edir. Müəllif daha çox tibbi terminləri təqdim edir. Muradın həyat yoldaşı Adrinin xəstəliyi ilə bağlı, Adrinin ağır xəstəliyə düçar olmasını qabartmaq üçün istifadə etdiyi tibbi terminlər hadisələrin mahiyyətinə varmağa vadar edir: "...elə bu gün stenoqrafiyaya salarıq, rəngli fotoanaliz apararıq, lazım gəlsə, kompüter tomoqrafiyası vasitəsilə ultrasəs diaqnostika tədqiqatı edəcəyik!.. Mənim ixtisasım olmasa da, özüm nəzarət edəcəyəm işlərin gedişinə... Qan analizi aparacağıq. Xəstəliyin səbəblərini dəqiqləşdirərik, sonra müalicəsini aparıb onu sağaldıb anadangəlmə sizə qaytaracağıq!."

Romanda Adrinin xəstəliyinin ağır olması məqamı əsərdə həkimlərin konsilium keçirməsinin təqdim edilməsində də əksini tapır: "Həkimlərin konsiliumundan sonra Adrinin bütün analizlərinin nəticələri bir daha yoxlanıldı. Lazer cərrahiyyəsi ilə qırmızımtıl sarı ləkə götürülməli idi..."

Qeyd etmək lazımdır ki, konsilium çətin hallarda xəstəliyi, onun müalicə üsullarını müəyyənləşdirmək üçün düzəldilən həkimlər müşavirəsidir. Yəni bir həkimin verə bilmədiyi qərardır. Bu cür hallar da ən ağır xəstələrin müalicəsi zamanı həyata keçirilir.

Layihə-konstruktor bürosunda yüksək vəzifədə çalışan Tengizin simasında da terminlərə müraciət edilir: "Büro radiosiqnallarla idarə olunan hərbi təyinatlı uçuş aparatlarının yeni nəslinin ixtirası ilə məşğul idi. Əvvəlkilərdən fərqli olaraq bu aparatlar daha uzaq mənzilli olaraq radarlara düşmür, "yükünü" boşaltdıqdan sonra geri qayıda bilirdi...

Çoxsaylı siqnallar və təlimlər zamanı yeni nəsil nümunələri özlərini doğrultmuş və uğurlu nəticələr göstərmişdi".

Əsərin dilində yazıçının istifadə etdiyi ifadələr, idiomlar, atalar sözü, məsəllər və s. maraq kəsb edir. Məsələn, romanın bir hissəsində istifadə edilən "başı əlində deyil" ifadəsinin işlədilməsinə diqqət yetirək: "Adri axı xəstədir! Bu tezlikdə onun sağalması mümkün deyildi... Özünü idarə edə bilsəydi, Murada xəbər çatdırardı. Adri ona sədaqətli idi. Murad ona inanırdı... Deməli, onun "başı əlində deyil"..." "Başı əlində deyil" idiomu ilə müəllim bir insanın ixtiyarının əlində olmadığını açıqlayır.

“Bir yaşıl uzaq ada” romanında istifadə edilən başqa bir idioma diqqət yetirək: “Bakıda vəziyyət ağırlaşırdı. Hər gün Moskvadan bir neçə yüksək səviyyəli məmur Bakıya gəlir, Mərkəzi Komitədə danışıqlar aparılır, məsləhətləşmələr keçirilir, xalqa müraciətlər edilirdisə də, bunlar heç bir nəticə vermirdi. Mixail Sergeyeviç özü qaynatdığı qazanda özü “bişirdi” və bütün kin-küdurətini Azərbaycanın üstünə tökürdü”. Müəllif “qaynatdığı qazanda özü “bişirdi” idiomunu “O məşum gecə” (gözlərim önündə baş vermiş hadisə olduğu kimi)” adlı yazısında da istifadə edir. Bu idiomla Qorbaçovun etdiyi pislikləri göstərir.

Əsərin dilində bir çox atalar sözü və məsəllərin işlədilməsi ilə rastlaşırıq. Məsələn, yazıçı XX əsrin sonlarında xalqını aldadan “Xəyal” bankın harada və kimin mənzilində yerləşməsinə toxunmaqla baş verənlərin kimlər tərəfindən həyata keçirilməsinə işıq salır. Məmməd Əliyev çoxlarının görüb-bildiyi mühüm bir məsələni gizlətməyə çalışdıqlarını “cidanı çuvalda gizlətmək olmaz” kimi atalar sözü ilə ifadə edir: “Yaxşı deyiblər ki, cidanı çuvalda gizlətmək olmaz, gec-tez onun ucu görünəcək... Çox az vaxt keçdi ki, hər şey məlum oldu. Bankın sahibi Quba rayonu, Digəh kənd sakini Tahir Bədəlov imiş, mənzil isə Respublikanın Baş prokuroru Eldar Həsənovun. Əli silahlı əsgərlər həm mənzili, həm də “Xəyal” bankı qoruyurmuş...”

“Bir yaşıl uzaq ada” romanının bədii dilində poetik nümunəyə də müraciət edilir. Yazıçı 101 yaşlı Dürrə arvadın dünyasını dəyişməsi ilə bağlı ağrını, insan itkisini şeirlə təqdim edir: “Yaşının 101-ci ilində bu dünya ilə vidalaşdı... Bu, gözəl ölüm idi!...

Yüz bir il əvvəl yanmış çıraq yüz ildən artıq şölə çəkib yanmış, yanmışdı....

Belə gözəl ölüm çoxlarına qismət olmur....

Şair demişkən:

*Ölüm gözəl bir şey*
*Budur pərdə ardından,*
*Heç gözəl olmasaydı*
*Ölərdimi peyğəmbər...*”

Yazıçının “şair demişkən” deyə təqdim etdiyi poetik nümunə böyük türk şairi Nəcib Fazil Qısakürəkin qələminə məxsusdur. Məmməd Əliyev bu poetik nümunə ilə heç kimin ölümdən yaxa qurtara bilməyəcəyini və ölümün insanların düşündüyü kimi pis bir şey olmadığını vurğulayır.

## Nəticə / *Conclusion*

Filologiya elmləri doktoru, professor Məmməd Əliyevin “Bir yaşıl uzaq ada” romanı da müəllifin tetralogiyasına daxil olan digər “Həsrətin o üzü” (2021), “Karvan köçər, ötər gedər sədası” (2021), “Mavi-yaşıl gözlərin işığı” (2023) kimi irihəcmli romanları kimi, yalnız Muraddan bəhs etmir. Tetralogiyaya daxil olan bütün əsərlər Muradla bərabər faktlara əsaslanan tarixi reallığı əks etdirir. Tetralogiya müəllifin, yəni Məmməd Əliyevin bir elm xadimi, bir yazıçı, bir vətəndaş kimi həyat yolu haqqında bilgi əldə etməyə şərait yaradır. Yazıçının roman-etirafları Azərbaycan xalqının azadlıq mücadiləsi zamanı üzləşdiyi faciələr, insan itkiləri ilə üzləşməsi və s. təsviri həm bədiilik, həm də tarixilik baxımından əhəmiyyət kəsb edir.

Filologiya elmləri doktoru, professor Məmməd Əliyevin “Həsrətin o üzü” (2021), “Karvan köçər, ötər gedər sədası” (2021), “Mavi-yaşıl gözlərin işığı” (2023), “Bir yaşıl uzaq ada” (2025) roman-etirafları həm də ilk tetralogiya nümunəsi kimi Azərbaycan ədəbiyyatında yer alır. Məmməd Əliyevin ictimaiyyətə təqdim etdiyi ilk tetralogiyaya daxil olan, süjet və müəllif fikri ilə birləşən əsərlər oxucunu müəllifin keçdiyi həyat yolunun müəyyən məqamları ilə tanış edir.

**Ədəbiyyat / *References***

1. Əliyev Məmməd. Karvan köçər, ötər gedər sədası. – Bakı: Elm və təhsil, 2021, 388 s.
2. Əliyev Məmməd. Mavi-yaşıl gözlərin işığı. – Bakı: Optimist MMC çap mərkəzi, 2023, 490 s.
3. Xəlil Rza Ulutürk. Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram! "Ədalət", 2010, 28 may.
4. Şərifova Salidə. "Karvan köçər, ötər gedər sədası" romanının problematikası, janr xüsusiyyətləri, bədii obrazları və bədii dili haqqında // https://literature.az/?page=339&newsId=117610&lang=aze

## Жанровые особенности, проблематика, художественные образы и художественный язык романа Мамеда Алиева "Этот зеленый далекий остров"

**Салида Шарифова**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: sharifovasalida@rambler.ru

**Резюме.** Роман Мамеда Алиева "Этот зеленый далекий остров" является четвертой книгой в его тетралогии, в которую входят такие масштабные произведения, как "Та сторона тоски", "Караван проходит, и эхо его проходит" (2021) и "Свет сине-зеленых глаз" (2023).
Первая часть романа посвящена событиям 20 января и 20 ноября, Каракендской трагедии, Чайкендской и Дашалтинской операциям и т.д. Автор не просто описывает сами события, но и глубоко и подробно представляет их последствия. Вторая часть романа охватывает учреждение Мурадом университета, его борьбу на фоне социальных проблем, затрагивающих судьбу нашего народа.
Роман "Этот зеленый далекий остров" привлекает внимание тем, что имеет четко выраженные черты романа-исповеди. Автобиографичность в романе-исповеди связана с близостью главного героя и автора как в силу его жизненного опыта, отношения к миру, так и социального статуса. Мамед Алиев, как писатель, описывает события и обстоятельства, пережитые лично, и на основе собственного опыта формирует художественные обобщения.
**Ключевые слова:** Мамед Алиев, "Этот зелёный далёкий остров", проблематика, роман-исповедь